


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az
polisazerbaycan
5 oktyabr 2023-cü il
cümə axşamı
1933-cü ildən çıxır
№ 38 (3652)

# Ölkəmiz kosmik ailənin üzvüdür

## Azərbaycan qlobal kosmik sənayenin genişlənməsinə töhfə verir

**Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev tədbirdə iştirak ediblər.**




Konqresin açılış mərasimində çıxış edən Prezident qeyd edib ki, Azərbaycan on ildən artıqdır beynəlxalq kosmik ailənin üzvüdür: **"Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər".**

Prezident İlham Əliyev ölkəmizin iqtisadi inkişafı, ərazi bütövlüyünün və suverenliyin bərpası ilə bağlı məsələlərdən də bəhs edib.

### Sülh vaxtı çatıb

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyin bərpa etdiyini vurğulayan Prezident münaqişəyə bununla da son qoyulduğunu, ədalətin və beynəlxalq hüququn bərpa edildiyini bir daha bəyan edib: **"İndi isə Qafqazda sülh üçün vaxt yetişib. Bu, bizim gündəliyimizdir.**

**Gündəliyimiz Qafqazda sülhün, regionda sülhün, əməkdaşlığın qurulmasıdır və hamı üçün faydanın gətirilməsidir".**

Əldə edilmiş iqtisadi nailiyyətlər barədə danışan dövlət başçısı son 20 il ərzində, ümumi daxili məhsulun dörd dəfə, büdcə gəlirlərinin 30, xarici ticarət dövriyyəsinin isə on dəfədən çox artdığını bildirib.

Dövlət başçısı xüsusi ilə vurğulayıb ki, Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcu on dəfə üstələyir, sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur.

### Sabitlik inkişafımızın mühüm meyarıdır

Azərbaycanın müstəqilliyinin ilk illərində yoxsulluq problemi ilə üzləşdiyini deyən Prezident hazırda yoxsulluq səviyyəsinin 5,5 faiz təşkil etdiyini, bunun da hasil edilən və beynəlxalq bazarlara çıxarılan təbii sərvətlərin lazımi qaydada idarə edilməsinin göstəricisi olduğunu qeyd edib: **"Milli sərvətlərin bərabər paylanması bu gün beynəlxalq ekspertlər və ən vacibi isə, Azərbaycan xalqı tərəfindən qeyd olunur. Bir sözlə, bütün bunlar əslində göstərir ki, ölkə çox dayanıqlı vəziyyətdədir. Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır, çünki aydındır ki, əgər vəziyyət sabit və proqnozlaşdırılan olmasa, investorların gələrək öz kapitalını risk altına atmasını gözləmək olmaz".**

# Uğurlu əməkdaşlıq davam edəcək

## Prezident və birinci xanım Baş direktorla görüşüblər

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 2-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüblər.

Görüşdə qonaq ötən həftə Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirakçıların yekdil qərarı ilə Azərbaycanın Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülməsi münasibətilə dövlətimizin başçısını təbrik edib.

Prezident Şuşada böyük bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini vurğulayaraq, burada digər obyektlərlə yanaşı, məscidlərin də artıq bərpa olunduğunu və bu prosesin davam etdirildiyini məmnunluqla diqqətə çatdırıb, bu cür genişmiqyaslı işlərin işğaldan azad edilmiş digər ərazilərimizdə də icra olunduğunu deyib.

# Erməni məkrinin sonu

## Tarixi ədalət bərpa edildi

Azərbaycan haqlı tədbirləri ilə Xankəndi və ətrafını terrorçulardan təmizlədi. Prezident İlham Əliyevin də daim qeyd etdiyi kimi, Azərbaycan heç vaxt ərazisində ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdi. Çünki Azərbaycan müstəqil, suveren, öz hüquq və haqlarını bilən qüdrətli dövlətdir.

İndi növbə qondarma rejimin cinayətkar rəhbərlərinin, əli Xocalıda günahsız insanların qanına batan, azərbaycanlılara qarşı həyata keçirilən cinayət əməllərində, qətliamlarda iştirak edən canilərindir. Artıq onların bir neçəsi həbs edilib. Bu onu göstərir ki, İlham Əliyev deyir, onun icrasını da reallaşdırır.

Uğurlu antiterror əməliyyatlarından sonra sentyabrın 20-də xalqa müraciətində Prezident bir daha bəyan etdi ki, Azərbaycan Xocalıda və digər ərazilərimizdə törədilən qətliamlara, cinayət əməllərinə görə erməni xalqını deyil, kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham edib və bu gün həmin şəxslər məsuliyyətə cəlb olunur. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev oktyabrın 3-də İmişli rayonunun Ağsu–Kürdəmir–Bəhrəmtəpə–Məmmədli–Ağamalılar–Əlyetməzli–Allahmədətli–Telişli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 3-də Məşhur Şahbaz oğlu Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 2-də turizm sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 2-də Teymur Həşim oğlu Kərimlinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# Qayıdışın Zəngilan mərhələsi

## Böyük Qayıdış Proqramının icrası bir nömrəli vəzifədir

**Prezident İlham Əliyev sentyabrın 28-də Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl və Zəngilan rayonlarına səfəri çərçivəsində bir sıra infrastruktur layihələrinin təməlini qoyub, açılışlarda iştirak edib. Dövlət başçısının bölgəyə bu növbəti səfərini Böyük Qayıdışın Zəngilan mərhələsinin başlanğıcı kimi də dəyərləndirmək mümkündür.**




Dövlət başçısı həmin gün Cəbrayıl şəhərində inzibati binanın təməlini qoyub, Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olub, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.

Zəngilan rayonunda isə Alıbəyli, Zəngilan kəndlərinin, yaşayış komplekslərinin, uşaq bağçasının təməlini qoyan Prezident Zəngilan Konqres Mərkəzi Kompleksinin, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında iştirak edib, Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olub.

Bir gün sonra Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırılan minimum büdcə 2,4 milyard ABŞ dolları olacaqdır.

Böyük Qayıdış Proqramının icrasının bir nömrəli vəzifə olduğunu deyən dövlət başçısı Proqramın icra edilməsi ilə keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtdıqlarını vurğulayıb: "Enerji potensialı, nəqliyyat, yaşayış layihələri - bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq".

Qarabağın hər guşəsində biz varıq! 2

Onlar Vətənə and içdilər 2

Həmkarlarımız müsabiqədə qalib oldular 3

Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları 4

# Vətəndaş qəbulu keçiriləcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən oktyabr ayının 25-də Ağcabədi Rayon Polis Şöbəsinin inzibati binasında Ağcabədi, Ağdam, Bərdə, Laçın və Zərdab şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 24.10.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in **mia.gov.az** internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Prezident Administrasiyasından açıqlama

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyətə başlayıb. Görüşlərdə Azərbaycanın reinteqrasiyaya dair planları təqdim edilib və onun ətrafında müzakirələr aparılıb. Reinteqrasiya Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycanın Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir. Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir. Reinteqrasiyanın praktiki icrası ilə bağlı hüquqi və idarəetmə, təhlükəsizlik, iqtisadi, sosial, mədəniyyət, təhsil və dini sahələr üzrə təmaslar davam etdiriləcək.

### Risk zonaları müəyyən edilir

Yüksək riskli zonaların müəyyən edilmə əsasları təsdiqlənib. Bununla bağlı müvafiq Qərar imzalanıb. Bu sənəd "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.4-cü maddəsinə uyğun olaraq hazırlanıb və yüksək riskli zonaların müəyyən edilmə əsaslarını tənzimləyir. Bu sənədin 2-ci hissəsində qeyd olunanlar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.5-ci maddəsinə uyğun olaraq yüksək riskli zonaların siyahısının müəyyən edilməsi üçün əsasdır.

### Erməni sakinlərin qeydiyyatı aparılır

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı müvafiq tapşırıqlar verilib. Prezident Administrasiyasından bildirilib ki, bu fəaliyyət çərçivəsində ilkin mərhələdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin qeydiyyatının aparılması nəzərdə tutulur. Müraciətlərin qəbulu və qeydiyyata alınma prosesi elektron qaydada həyata keçiriləcəkdir. Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilkin qeydiyyata alınmaq üçün könüllü şəkildə reintegration.gov.az portalına müraciət edə bilərlər.

### Zəhərli maddələrin siyahısı dəyişir

Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahısında dəyişiklik edilir. Bu məsələ Milli Məclisin növbəti plenar iclasında müzakirəyə çıxarılacaq "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" qanun layihəsində öz əksini tapıb. Sənədə əsasən, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələri satış məqsədilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə əməllərini həyata keçirənlər cinayət məsuliyyətinə cəlb olunacaqlar.

# Qarabağın hər guşəsində biz varıq!

## Yeni reallıqlar qarşımıza daha mühüm vəzifələr qoyur

**Elə bir dövr yaşayırıq ki, çox güman gələcək nəsillər bu günləri dərsliklərdən oxuyanda tarixi ədalətin bərpa edilməsinə şahidlik etdiyimizə görə bizə qibtə edəcək. Təəssüf ki, indi orta nəsil adlandırıla biləcək gəncliyin belə bir imkanı olmadı. Tale sanki bizdən üz döndərmişdi. Tarixə boylanmaq pozulmuş ərazi bütövlüyünün, tapdanmış suverenliyin, qaçqın və məcburi köçkünlüyün tragediyasına tamaşa etmək demək idi.**



Bu gün daxili işlər orqanları əməkdaşlarının, daha dəqiq desək, dövlət yurisdiksiyasının yenidən ayaq basdığı Qarabağa o günlərdə ancaq şöləsi getdikcə öləziyən arzularda dönə bilirdik.

**Azərbaycanın ali məqsədi**

İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa etməsini Laçında sərhəd-buraxılış məntəqəsi qurmaqla "möhürlədi". "Nəyi, necə, nə vaxt etmək" lazım olduğunu çox məharətlə müəyyən edən Prezident İlham Əliyev Qarabağ problemini möhtəşəm sonluqla yekunlaşdırdı. Budur, artıq lokal antiterror tədbirləri ilə azad edilən rayonlarda biri-birinin ardınca ucaldılıb suverenlik rəmzi kimi dalğalandırılan Azərbaycanın üçrəngli bayrağı kimliyindən asılı olmayaraq hər kəsi xalqımıza xas tolerant dəyərlərə, multikultural harmoniyaya qatılmağa dəvət edir.

Hazırda dövlət orqanları Qarabağda yaşayan erməni sakinlərin yerli cəmiyyətə reinteqrasiyasının daha sürətli həyata keçirilməsi, sosial-humanitar ehtiyaclarının qarşılanması üçün birgə fəaliyyətə başlayıblar. Daxili işlər orqanları isə ictimai qaydanı və ictimai təhlükəsizliyi təmin etməklə bu işlərin həyata keçirilməsinə əlverişli zəmin yaradır. Ərazidən çıxarılıb müvafiq düşərgələrə yerləşdirilərkən, yaxud könüllü olaraq Qarabağı tərk edərkən qida və tibbi təminatları həyata keçirilən, mühafizə edilən sakinlər əsl dövlət qayğısını hiss edirlər.

**Qarabağa öncə qanun qayıtdı!**

Erməni sakinlərin reinteqrasiyası ilə bağlı görülən işlərdə ərazidə ictimai asayişin qorunması və sakinlərin təhlükəsizliyinin təminatı hazırda daxili işlər orqanlarının Qarabağda gündəlik xidmətinin bir parçasıdır. Azərbaycan qanunlarının orada tam işlək vəziyyətə gətirilməsi üçün keçirilən kompleks tədbirlər çərçivəsində erməni silahlı birləşmələri tərəfindən tərk edilmiş döyüş mövqeləri və dayaq məntəqələri ləğv edilir, ərazidə kommunikasiya xətləri bərpa olunur. Yaşayış məntəqələrini birləş-



dirən yollar üzərindəki səngərlər bir də heç vaxt Vətənin bağrına yara açmasın deyə qapadılır. Silah-sursatın aşkarlanaraq təhvil verilməsi, tərksilah və tərxis prosesi də başa çatdırılmaq üzrədir. Bir sözlə, Qarabağ bölgəsində sosial, humanitar, infrastruktur və təhlükəsizlik məsələləri öz həllini tapmaqdadır.

Bu günlərdə Xocalıda 100 hektardan çox ərazidə kultivasiya üsulu ilə əkilmiş çətənə plantasiyasının aşkar edilməsi Qarabağın işğal dövründə narkotranzit kimi istifadə edildiyi barədə deyilənləri təsdiq etmiş oldu. Bundan əvvəl daxili işlər orqanlarının əməkdaşları mülki obyektlərdə partlayıcı qurğuların yerləşdirildiyini üzə çıxarmışdı. Bu faktlar onu göstərir ki, ərazinin kriminal ünsürlərdən təmizlənməsinə nə qədər prinsipial, nə qədər peşəkar yanaşılır. Bu gün daxili işlər orqanlarının əsas diqqəti Qarabağda, nəhayət, ictimai asayişin, ictimai təhlükəsizliyin, əmin-amanlığın tam təmin edilməsinə yönəlib.

Yeni reallıqlar qarşımıza daha mühüm vəzifələr qoyur. Orada dövlət qanunlarının aliliyini Azərbaycan Polisi inşa edəcək. Bu şərəfli missiyanın yükü polisin güclü çiyinlərindədir. Dünya da rahat olsun. Qanunlar çərçivəsində yaşayan, hüquqi öhdəliklərinə əməl edən hər bir vətəndaş dövlətimizin həmişə təmin etdiyi ədalət, hüquq və azadlıq çətirinin altında təhlükəsiz yaşayıb, bundan sonra da belə olacaq.

*Rəşad Mehtiyev*

# Onlar Vətənə and içdilər

## Tariximizdə, yaddaşımızda və xatirələrdə yaşayacaqlar

Sentyabrın 19-da Qarabağda keçirilən antiterror tədbirlərində şəhidlik zirvəsinə ucalan oğullarımızdan biri də Daxili Qoşunların hərbi qulluqçusu, polkovnik-leytenant Hüseynov Rəşad Rəhim oğludur. Ömrü yarıda qalsa da igidimizin keçdiyi döyüş yolu daim xatırlanacaq, adı Vətəni bütövlüyünə qovuşduranların sırasında fəxarətlə çəkiləcək.



Şəhid hərbi qulluqçumuz 1980-ci ildə Şirvan şəhərində doğulub. Uşaqlıq arzusuna çatmaq üçün orta məktəbi bitirdikdən sonra 1995-ci ildə C.Naxçıvanski adına hərbi liseyə daxil olub. 1998-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunduqdan sonra qarşısına çıxan hər bir çətinliyin öhdəsindən gələcəyinə, özgüvən hissinin onu uğurlardan-uğurlara, qələbələrdən-qələbələrə aparacağına inanıb. 2002-ci ildə məzun olub və müvafiq ixtisasa yiyələnib. Biliyini, bacarığını təkmilləşdirmək, peşəkar mütəxəssis kimi yetişmək üçün Daxili Qoşunların Qala Tədris Mərkəzində 9 aylıq kurs keçib. Sonra müxtəlif hərbi hissələrdə taqım komandiri, bölük komandirinin tərbiyəvi işlər üzrə müavini, hərbi hissənin qərargah rəisinin döyüş təlimi üzrə müavini, hərbi hissənin əməliyyat taborunun komandirinin müavini, qərargah rəisi, tabor komandiri və patrul taborunun komandiri vəzifələrində xidmət edib. Xidmət illərində bir çox medallara, o cümlədən "Qüsursuz xidmətlərə görə", "Xidmətdə fərqlənməyə görə" və yubiley medalları ilə təltif olunub.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsindən sonra azad olunmuş torpaqlarımızda R.Hüseynov silahdaşları ilə birgə xidmətə yollanıb və ordumuzun qüdrəti ilə fəxr edib.

Polkovnik-leytenant Rəşad Hüseynov 2021-ci ildə Gəncə şəhərindəki "N" saylı hərbi hissədə dəstə komandiri vəzifəsinə təyin olunub.

Onu tanıyanlar deyir ki, o, dava, mücadilə adamıydı. Tabeliyində olan şəxsi heyəti də qorxmaz, cəsur yetişdirmək üçün bütün varlığını səfərbər etmişdi. "XXI əsrin əsgəri savadlı olmalı, verilən bütün tapşırıqların öhdəsindən gələrək qarşıya çıxan hər bir çətinlikdən çıxış yolu tapmalıdır". Bu fikirlər onun komandir kimi devizi idi. Yaşamaqla ölüm arasında gözlə görünən və insanı əbədiyyətdən üz çevirməyə vadar edən qorxunun sərhədini keçmək üçün daha bir müqəddəs döyüş tapşırığını yerinə yetirməyə hər an könüllü olub.

Arzusu bu ilin sentyabrın 19-da gerçəkləşib. Azərbaycan Ordusu tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı peşəkar zabit kimi paqondaşları ilə döyüşlərə qatılıb polkovnik-leytenant R.Hüseynov.

Xankəndinə, Xocalıya, Xocavəndə və Ağdərəyə bayraq sancmaq üçün igid oğullarımıza günlər, aylar lazım olmayıb. Cəmi 23 saat 43 dəqiqəyə separatçılar ağ bayraq qaldıraraq təslim olublar. Ancaq...

Bu antiterror tədbirlərində itkilərimizin olduğu barədə xəbərləri xalqımız böyük bir hüznlə qarşılasa da sevinclə kədər qoşa qanad kimi üçrəngli bayrağımızı enməyə qoymadı. Şəhidimiz Şirvan şəhərindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Vətənə iki övladı yadigar qalıb.

*Nizam Həmidov,*
*polis kapitanı*

# Zəruri tədbirləri görülür

## Nəqliyyat sıxlığının qarşısı alınır

Bakı daha bir mötəbər tədbirə ev sahibliyi edir. Bu dəfə 74-cü Beynəlxalq Astronavtika Konqresinin iştirakçıları paytaxtımıza toplaşıb. Bununla bağlı Daxili İşlər Nazirliyi tərəfindən təhlükəsizlik tədbirləri, o cümlədən paytaxt yollarında nəqliyyatın sıxlığının qarşısının alınması istiqamətində bütün zəruri işlər həyata keçirilib.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin paytaxt sakinlərinə və sürücülərə ünvanladığı müraciətdə oktyabrın 2-dən 6-dək alternativ yollardan istifadə etmələri qeyd olunub.

Bildirilib ki, beynəlxalq əhəmiyyətli tədbirin yüksək səviyyədə, təhlükəsiz şəraitdə keçirilməsi üçün bütün hərəkət iştirakçıları ictimai nəqliyyata üstünlük verməlidirlər.

Qeyd edək ki, 101 ölkədən 4000-ə yaxın iştirakçı konqresə qatılmaq üçün qeydiyyatdan keçib. Beynəlxalq tədbirə ümumilikdə 33 şirkət sponsor qismində dəstək göstərir.

# Həmkarlarımız müsabiqədə qalib oldular

## Hər uğurun təməlində zəhmət və peşəkarlıq durur






Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası tərəfindən polis əməkdaşlarının xidməti fəaliyyətini, həyatını işıqlandırmaq məqsədi ilə ənənəvi media müsabiqə təşkil olunub. Müsabiqədə ölkəmizin təmsilçiləri də iştirak ediblər. Müsabiqənin nəticələri sentyabrın 15-də Qazaxıstanın Türküstan şəhərində keçirilən növbəti iclası zamanı elan olunub. Nəticələrə əsasən DİN Mətbuat Xidmətinin Bölmə rəisi, polis baş leytenantı Zeyni Hüseynovun və müstəqil fotoreportyor Rac Stevenin təqdim etdikləri fotolar "Şərəf duyuram" nominasiyası üzrə, çəkiliş qrupunun inspektoru, polis mayoru Anar Qafarovun hazırladığı videoçarx isə həmin nominasiya üzrə videomüsabiqədə II mükafatlara layiq görülüblər.



Bundan əlavə, Mətbuat Xidmətinin əməkdaşı, polis serjantı Gümüş Stevenin çəkdiyi foto isə "Təbiətin hər çağı gözəldir" nominasiyasında III mükafata layiq görülüb.

Həmin fotoları təqdim edirik.

# İnamı, etibarı doğrultmağa çalışır

## Onlar qəhrəmanlıq dastanını Vətən müharibəsində yazdılar



Vətən müharibəsində Azərbaycan gəncliyinin fədakarlığını, vətənpərvərliyini çıxışlarında hər zaman vurğulayan Müzəffər Ali Baş Komandan onların həyatın bütün sahələrində öz bilik və bacarıqlarını inkişaf etdirmələri, müxtəlif vəzifələrə irəli çəkilmələri üçün diqqət və qayğısını əsirgəmir. "Gənclər bizim gələcəyimizdir" devizinə bu gün bütün dövlət orqanları qoşulub. Bu sırada demək olar ki, DİN birincilərdəndir. Gənclərin, xüsusən də Vətən müharibəsi iştirakçılarının daxili işlər orqanlarına qəbul edilməsi artıq ənənə halını alıb. DİO-ya xidmətə qəbul edilən gənclərdən biri də Şirxan Şöhrət oğlu Qaravəliyevdir.

Şirxan Qaravəliyev 1995-ci ildə Rusiyanın Tambov vilayəti Nikiforov rayonunda doğulub. Ailə vəziyyəti ilə bağlı Vətənə qayıtdıqdan sonra ibtidai təhsilini Qazax rayon Q.Hacımahmudova adına ümumi orta məktəbdə alıb. O, 2012-ci ildə Bakı şəhər 136 nömrəli tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb.



2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Şöhrət Qaravəliyev Murovdağ, Kəlbəcər, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının düşmən işğalından azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərib.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə "Vətən müharibəsi iştirakçısı" medalına layiq görülüb.

2021-ci ildən daxili işlər orqanlarında xidmətə başlayan polis nəfəri Ş.Qaravəliyev xidmətini Xəzər RPİ-nin Post-Patrul Xidməti Bölüyündə davam etdirir.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Narkotik cinayətə açılan qapıdır

## Sağlam gənclik, etibarlı gələcək naminə mübarizə aparırıq

Göyçay, Lənkəran, Lerik, Hacıqabul, Yevlax şəhər və rayonlarının Polis Şöbələrinin təşkilatçılığı ilə orta məktəblərdə "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici görüşlər keçirilib.



Tədbirlərdə çıxış edən polis əməkdaşları cəmiyyəti təhdid edən, başəriyyətin böyük bəlasına çevrilən narkomaniya ilə mübarizənin vacibliyindən, sağlam gəncliyi qorumaq, etibarlı gələcəyi təmin etmək üçün belə maarifləndirici görüşlərin davamlı şəkildə təşkilinin zəruriliyindən danışıblar.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində hüquq mühafizə orqanları tərəfindən keçirilən qətiyyətli tədbirlərlə bağlı görüş iştirakçılarına ətraflı məlumat verən natiqlər narkotik istifadəçilərinin potensial cinayətkara çevrildiyini və törədilən cinayətlərdə onların əksəriyyət təşkil etdiyini də diqqətə çatdırıblar.

Qeyd olunub ki, hər bir şagird öz hüquq və vəzifələrini bilməli, zərərli vərdişlərdən uzaq durmalıdırlar. Yeniyetmə və gənclərimiz yüksək təhsil almalı, müasir informasiya texnologiyalarından istifadə etməyi bacarmalı, idmanla məşğul olmalı, milli-mənəvi dəyərlərimizə sədaqətli olmalı, onlara olan inamı və etimadı doğrultmalıdırlar.

Sonra tədbirdə iştirak edən digər qurumların nümayəndələri gənclərin vətənpərvər ruhda böyüməsi, bilik və bacarıqlarını nümayiş etdirmələri üçün dövlətimiz tərəfindən hər cür şəraitin yaradıldığını, bu istiqamətdə həyata keçirilən tədbirlərin dövlət siyasətinin prioritetlərindən olduğunu vurğulayıblar.

*"Polis"*

# Təbliğat və təşviqat davam edir

## Yaradılan şərait gənclərə qayğı nümunəsidir



Daxili İşlər Nazirliyinin Polis Akademiyasının təşkilatçılığı ilə Şirvan şəhərində yerləşən təhsil ocaqlarında IX-XI sinif şagirdləri ilə görüşlər keçirilib.

Görüşlər zamanı şagirdlərə ölkəmizdə sabitliyin və asayişin təmin olunmasında, eləcə də hüquq normalarının qorunmasında daxili işlər orqanlarının fədakar xidmətindən bəhs edilib. Sıralarımıza qatılmaq arzusunda olan gənclərə gələcəkdə hədəflərinə çata bilmələri üçün sağlam həyat tərzi keçirmələri, dərslərini yaxşı oxumaları tövsiyə olunub.

Sonra şagirdlərə Polis Akademiyasında yaradılan şərait, kitabxanalar, laboratoriyalar haqqında geniş məlumat verilib.

Tədbirlərin sonunda məktəblilərə bukletlər paylanılıb.

# Onlar xilas edildi

## Ana və övladları sığınacağa yerləşdirilib



Vətəndaş Vüsalə Hüseynova Kürdəmir Rayon Polis Şöbəsinə müraciət edərək bildirib ki, həyat yoldaşı tərəfindən fiziki zorakılığa məruz qalır. Şikayətçi 13, 10 və 5 yaşlı uşaqları ilə birlikdə sığınacaqlardan birinə yerləşdirilməsini xahiş edib.

Hadisə ilə bağlı polis əməkdaşları vətəndaşın təhlükəsizliyini təmin etmək məqsədilə ailəni xüsusi nəzarətə götürüb, qadının həyat yoldaşı barəsində araşdırmalara başlanılıb.

Qadının və uşaqlarının sosial təhlükəli vəziyyətdə olması nəzərə alınaraq müvafiq sığınacağa yerləşdiriliblər.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Sərhəd tanımayan bəla

## Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb



Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində polis əməkdaşları tərəfindən əməliyyatlar davam etdirilir. Tədbirlər zamanı İrandan ölkəyə narkotik vasitələri qaçaqmalçılıq yolu ilə gətirən 3 nəfər - əvvəllər məhkum olunmuşlar 1987-ci il təvəllüdlü Tural Həsənov, tanışı 1993-cü il təvəllüdlü Pünhan Mehdizadə və 1995-ci il təvəllüdlü Mahir Aslanlı DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıblar. Onlardan, idarə etdikləri avtomobil və yaşayış ünvanlarından 60 kiloqram, o cümlədən güclü təsirə malik 41 kiloqram heroin, 19 kiloqram "patı", "şüşə" kimi adlandırılan metamfetamin, 2000 ədəd "metadon" həbi, elektron tərəzilər və narkotiklərin qanunsuz dövriyyəsi zamanı əldə edilən pul vəsaitlərinin nağdlaşdırılmasında bilavasitə istifadə olunan bank kartları aşkar edilib.

Araşdırmalarla T.Həsənov, P.Mehdizadə və M.Aslanlının şəxsiyyətləri istintaqla araşdırılan "Münəccim" və "Səxavət" adlı İran vətəndaşları ilə qabaqcadan əlbir olaraq narkotikləri Biləsuvar və Qaradağ rayonları ərazisində yol kənarında gizlədilən yerdən satmaq məqsədilə əldə etdikləri müəyyən edilib. Saxlanılan şəxslər ölkəyə narkotik vasitə və psixotrop maddələr gətirən əsas fiqurlardan olublar.

# Narkotacirlər tutulub

## Şəxsiyyəti məlum olmayan şəxsdən narkotik almaq məsuliyyətdən azad etmir

Nərimanov rayonunda keçirilən əməliyyatlar zamanı ölkəyə 24 kiloqram narkotik vasitə gətirən 7 nəfər tutulub.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində polis əməkdaşları tərəfindən davam etdirilən tədbirlərlə İrandan ölkəyə narkotik vasitələri qaçaqmalçılıq yolu ilə gətirən 7 nəfər - Həsən Hacızadə, Emil Əliyev, Rüfət Mehdiyev, Nəriman Səfərov, Hamayıl Abdullayeva, Vüqar Həsənov və Yusif Məmmədov saxlanılıblar. Onlardan 24 kiloqram, o cümlədən güclü təsirə malik 9 kiloqram heroin, 3 kiloqram metamfetamin, 12 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilən marixuana, 800 ədəd "metadon" həbi və elektron tərəzilər aşkar edilib.

Araşdırmalarla saxlanılanların Səid və Abbas adlı İran vətəndaşları ilə qabaqcadan əlbir olaraq narkotikləri satmaq məqsədilə əldə etdikləri müəyyən olunub.

Qeyd edək ki, 2023-cü ilin əvvəlindən Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyatlar zamanı ümumilikdə 60 kiloqramdan artıq müxtəlif növ güclü təsiredici xassəyə malik narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

*Anar Qafarov*
*polis mayoru*

# Gümüş medal qazandı

## Yetirməmiz dünya çempionatında uğurlu çıxış edib



Bu günlərdə Daşkənd şəhərində 18-23 yaş gənclər arasında karatenin WSF Şotakan növü üzrə 13-cü dünya çempionatı keçirilib. Turnirdə DİN İdman Cəmiyyətinin təmsilçisi Suada Kərimova uğurlu çıxış ilə yadda qalıb. O, 32 ölkədən 1280 idmançının qatıldığı yarışda 55 kiloqram çəki dərəcəsində II yeri tutub.

İdmançımız ilk görüşündə Qazaxıstanlı rəqibi Kamila Meirambekovaya qalib gəlib. Növbəti görüşdə yerli idmançı Odina Axmedova üzərində inamlı qələbə (9:3) qazanaraq yarımfinala yüksəlib. İsveç təmsilçisi Amanda Bergrenlə mübarizədə 1:0 hesablı qələbə qazanıb. S.Kərimova final mərhələsində həmyerlimiz Nuray Bayramlı ilə qarşılaşıb və 1 xal fərqi ilə gümüş medalla kifayətlənməli olub.

Qeyd edək ki, S.Kərimovanı yarışa İdman Cəmiyyətinin Fiziki Hazırlıq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov hazırlayıb.

# Xüsusi cüdo proqramı üzrə təlim keçirilib

## Məqsəd polis əməkdaşlarının fiziki bacarıqlarını inkişaf etdirməkdir






Beynəlxalq Cüdo Federasiyasının (BCF) təşkilatçılığı ilə DİN İdman Cəmiyyətində polis və hərbi qulluqçular üçün xüsusi cüdo proqramı üzrə təlim keçirilib. Xüsusi təlim proqramını BFC-nin Hərbçilər və Polislərlə Əməkdaşlıq Komissiyasının komissarı Krijan Şabolç təqdim edib.

Təlimin əsas məqsədi hüquq mühafizə orqanları əməkdaşlarına silahsız özünümüdafiə metodunu mənimsətmək olub. Həmçinin, proqram stresin idarə edilməsi, cüdo texnikalarının geniş spektrini, o cümlədən hərəkətlər, qaldırma, mübarizə, yerdə döyüş və ayağa qalxma bacarıqlarını əhatə edib. Krijan Şabolçun sözlərinə görə, qazanılan bacarıqlar polis əməkdaşlarının xidməti vəzifələrini icra edərkən qarşılaşdıqları təhlükələri önləmək əhəmiyyəti daşıyır.

"Azərbaycan Daxili İşlər Nazirliyi polis əməkdaşlarının fiziki hazırlıq peşəkarlığının artırılmasını diqqətdə saxlayır. Bu baxımdan keçirilən və gələcəkdə davam etdirilməsi nəzərdə tutulan bu təlimin əhəmiyyəti və rolu daxili işlər orqanları əməkdaşlarının fiziki bacarıqlarının daha da təkmilləşdirilməsinə xidmət edir", - deyə İdman Cəmiyyətinin sədri, polis polkovnik-leytenantı Mövlud Mirəliyev bildirib.

Sonda iştirakçıların məqbullar qəbul edilib.

Məlumat üçün qeyd edək ki, təlim Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin, Beynəlxalq Cüdo Federasiyasının və Azərbaycan Cüdo Federasiyasının birgə əməkdaşlığı çərçivəsində baş tutub.

*Teymur Əlizadə*
*polis mayoru*

# Həmkarımız mükafatlandırılıb

## Polis baş leytenantı təltif edilib

Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi tərəfindən cinayətkarlığa qarşı mübarizədə dövlətlərarası əməkdaşlığın gücləndirilməsində fəal iştirakına görə DİN Mətbuat Xidmətinin əməkdaşı "Təşəkkürnamə" ilə təltif edilib.

Polis baş leytenantı Ruslan Vəliyevə təqdim edilən təşəkkürnaməni Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlığa və digər təhlükəli cinayət növlərinə qarşı mübarizənin əlaqələndirilməsi Bürosunun Direktoru, polis general-leytenantı F.Oleq Konovalov imzalayıb.



БКБОП

БЮРО
ПО КООРДИНАЦИИ БОРЬБЫ С ОРГАНИЗОВАННОЙ ПРЕСТУПНОСТЬЮ
И ИНЫМИ ОПАСНЫМИ ВИДАМИ ПРЕСТУПЛЕНИЙ
НА ТЕРРИТОРИИ ГОСУДАРСТВ–УЧАСТНИКОВ
СОДРУЖЕСТВА НЕЗАВИСИМЫХ ГОСУДАРСТВ

БЛАГОДАРНОСТЬ

Старшему лейтенанту полиции
Валиеву
Руслану Сахават оглу

*За активное участие и реальный вклад в решение задач, направленных на укрепление межгосударственного сотрудничества в борьбе с преступностью на территории государств – участников Содружества Независимых Государств*

Директор
генерал-лейтенант полиции О.Ф. Коновалов

Приказ № 33
от 7 августа 2023 года

г. Москва

Həmkarımız MDB-yə üzv dövlətlərin ərazisində cinayətkarlığa qarşı mübarizədə dövlətlərarası əməkdaşlığın gücləndirilməsinə yönəlmiş problemlərin həllində fəal iştirakına və real töhfəsinə görə bu mükafata layiq görülüb.

*"Polis"*

# Əməkdaşımız çempionata hazırlaşır

## Gümüş və qızıl medal uğrunda mübarizə aparacaq



Paytaxtımızda keçirilən kəmər güləşi üzrə 3-cü Avropa çempionatında DİN İdman Cəmiyyətinin – DİN-ə bilavasitə tabe olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzinin əməkdaşı, polis leytenantı Sadiq Ağamalıyev də gücünü sınayıb.

Klassik güləş üzrə +100 kiloqram çəki dərəcəsində yarışan S.Ağamalıyev bürünc medala sahib çıxaraq dünya çempionatına lisenziya qazanıb.

Qeyd edək ki, bu yarışda Azərbaycan idmançıları 1 qızıl, 6 gümüş və 23 bürünc medala sahib olaraq ümumi hesabda 2-ci pillədə qərarlaşıblar.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Ehtimallar özünü doğruldur

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



*(Əvvəli ötən sayımızda)*

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

### Oğrular üzə çıxır

Bilirdim ki, Debua və Monjeneni gözləyir. Bundan başqa mənə məlumat verdilər ki, xanım Noel evdə olmayanda belə onun evi ətrafında naməlum adamlar dolaşır. Mənə xanım Noelin getdiyi bütün evlər barədə məlumat almaq lazım idi. Buna nail olmaq üçün öz əməkdaşlarımı küçələrdə, kuryerlərin olduğu ərazilərə yerləşdirdim. Kuryerlər arasında onlar şübhəli görünmürdülər.

Bu ehtiyat tədbirlərini gördükdən sonra özümü polisdən qorxurmuş kimi göstərərək, bir neçə gün xanım Noelgilə getmədim. Bir neçə gündən sonra bir cavan oğlanla onun evinə getdim. Cavan oğlanı mənə Parisdə sığınacaq verən bir xanımın qardaşı kimi təqdim etdim. Bu cavan oğlan isə bizim xəfiyyəmiz idi. Xanım Noelə izah etdim ki, oğlana tam etibar edirəm, onu polis tanımadığından, lazım olsa bu oğlanı özüm gəlmədiyim vaxt göndərə bilərəm.

- Bundan sonra cavan oğlan mənim vasitəçim olacaq. O, hər gün iki-üç dəfə gələcək, siz və dostlarım haqqında məlumat alacaq.
- Təəssüf ki, 20 dəqiqə əvvəl gəlmədiniz, bura sizi yaxşı tanıyan bir xanım gəlmişdi.
- O, kimdi belə?
- Marqeri bacı.
- Hə, o, məni qardaşımla birgə tez-tez görürdü.
- Mən onunla sizin haqqınızda danışanda, o, sizi lap düzgün təsvir etdi. Dedi ki, bütün gün burnu ilə tütün çəkir.

Xanım Noel çox təəssüflənirdi ki, mən tez gəlməmişəm və Marqeri bacını görməmişəm. Mən isə çox sevinirdim ki, belə olub, bu görüş mənim bütün planlarımı poza bilərdi. Əgər bu xanım Jermeni tanıyırdısa, deməli Vidoku da tanıyırdı və ola bilməzdi ki, onları bir-birilə səhv salsın. Fərq doğrudan da çoxuydu. Doğrudur, çox yaxşı qrimlənmişdim və kamuflyaj olmuşdum, amma bu oxşarlıq cüzi idi və Jermeni yaxından tanıyan adam ayırd edə bilirdi. Vaxtında məlumat aldım ki, Marqeri bacı onun evinə tez-tez gəlir. Bundan sonra ehtiyat gördüm ki, bu qadınla heç rastlaşmayım. Xəfiyyəmə getməmişdən əvvəl tapşırırdım ki, xanım Noelgilə baş çəksin və bu qadının orada olub-olmadığını aydınlaşdırsın. Bu qadın orada olsaydı, xəfiyyə şüşə pəncərəyə əski parçası bağlamalıydı. Yaxınlıqda mənim başqa köməkçilərim də vardı, xanım Noelin evinin açarlarını onlara vermişdim ki, lazım olanda evə daxil olub kömək edə bilsinlər. Öz aramızda danışmışdıq ki, şüşəni sındırsam onlar köməyə gələcəklər. Yəni bütün mümkün ehtiyat tədbirlərini görmüşdüm. Artıq işin sonu yaxınlaşırdı. Çərşənbə günüydü, axtardığım adamlardan məktub almışdım ki, cümə günü gələcəklər. Onlar üçün bu cümə günü yaddaqalan olmalıydı.

### Xəfiyyənin satqınlığı

Cümə günü səhər tezdən qonşu kafedə oturdum, ona görə ki, onlar adət etdikləri kimi, xanım Noelin evinə girməmişdən əvvəl küçədə var-gəl edərkən məni görə bilməsinlər. Özüm getməmişdən əvvəl xəfiyyəmi xanım Noelin evinə göndərdim, o, isə məlumat verdi ki, gedə bilərəm, Marqeri bacı orada yoxdur.

- Məni aldatmırsan ki? – deyə səsi həyəcanlı olan xəfiyyəmdən soruşdum.

Diqqətlə onun gözlərinin içinə baxdım, sanki, onun gözləri deşməyə hazırlaşırdım. Hiss etdim ki, nəsə gizlətməyə çalışan adamlarda olduğu kimi üzündəki əzalar hiss olunacaq şəkildə tərpənir. Hansısa hissim mənə dedi ki, fırıldaqçı ilə rastlaşmışam. Biz ayrıca otaqdaydıq, sanki, başımda ildırım çaxdı, tez onun yaxasından tutub, dedim ki, elə bu an etiraf etməsə, onda öləcək. Heyrətdən donub qalan və alçalan bu adam yoldaşlarının yanında tez üzr istəyərək, mızıldana-mızıldana danışmağa başladı. Məlum oldu ki, xanım Noelə hər şeyi danışıb.

Vaxtında duyuq düşüb üstünü açmasaydım bu hiyləgərlik mənə həyatım bahasına başa gələcəkdi. Başıma gələcəklər burada ikinci dərəcəli rol oynayırdı, cəmiyyətin maraqları naminə uğurun bir addımlığında məğlub olmağıma heyfslənirdim. Xəyanətkar Nanso həbs olundu, onun başqa cinayətləri də varıydı, ona görə gənc olmasına baxmayaraq həbsxanaya göndərildi, daha sonra isə Oleron adasına yolladılar, burada "karyerasını" başa vurdu.

Bu hadisədən sonra qaçaq katorqaçılar bir də Tiklon küçəsinə gəlmədilər. Amma onlar tezliklə həbs olundular.

*(Ardı var)*

# Müdriklərin söz xəzinəsi

Bu gün cəsarət etmədiyin üçün edə bilmədiyin şeyləri, sabah zamanın olmadığı üçün etməyə bilərsən.
**Paulo Koelyo**

Elə cinayət var ki, bağışlanmır, bu, Vətənə xəyanətdir.
**Ə.H.Bəhmənyar**

Öz Vətənini, öz azadlıq və istiqlaliyyətini sevən bir xalqın ruhunu məhv edəcək bir qüvvə yoxdur.
**M.İ.Kalinin**

Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər.
**Konfutsi**

Heç səhv etməyən insan, heç bir şey etməyən insandır.
**Yunus Əmrə**

Kitablar yaşlı insanların ən yaxşı yoldaşı, cavanların isə ən yaxşı yolgöstərənidir.
**Samuel Smiles**

Mübarizəsiz həyat olduqca cansıxıcıdır.
**M.Y.Lermentov**

Sözün qədrini bilməyən zəif düşüncəli adam adətən çox danışar.
**Ş.Montyeske**

Əhəmiyyətsiz saydığımız ən adi hadisələr bəzən həyatımızı cəhənnəmə döndərə bilər.
**A.Dante**

Əsl qəhrəmanlıq həyatda mübarizə aparıb qalib gəlməkdir.
**Napoleon**

Ən böyük fəlakətin içində belə ümidini itirmə, unutma ki, ilik bərk sümüyün içindən çıxır.
**Hafiz Şirazi**

İnsan ruhunu 2 şey qaraldır: susulacaq yerdə danışmaq, danışalacaq yerdə susmaq.
**Sədi Şirazi**

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik